BAKI FOND BİRJASI

# LİSTİNQ MƏSLƏHƏT PROQRAMI

BFB LISTING

## KAPİTAL BAZARLARINA APARAN YOL

# Listinq Məsləhət Proqramı

"Bakı Fond Birjası" QSC (BFB) qiymətli kağızların buraxılışı vasitəsi ilə maliyyələşmək istəyən və bu istiqamətdə dəstəyə ehtiyyacı olan şirkətlərə Listinq Məsləhət Proqramı (LMP) çərçivəsində qiymətli kağızların buraxılışı müddətində tam dəstək verir.

Proqramın əsas məqsədi ölkə iqtisadiyyatının müxtəlif sektorlarında qiymətli kağız buraxmaq istəyən şirkətlərin BFB-nin mövcud bazar seqmentlərinin tələblərinə cavab verəcək səviyyədə hazırlanmasına, maliyyə şəffaflığının təşviqi məqsədi ilə hesabatlılığın təmin edilməsinə, korporativ idarə tetmənin təkmilləşdirilməsinə və eləcə də, kapital bazarlarından əlverişli şərtlərlə maliyyə vəsaitləri cəlb etməsinə dəstək olmaqdan ibarətdir.

**Kapital bazarlarına çıxmaq, listinqin üstünlüklərindən yararlanmaq istəyən və aşağıdakı istiqamətlərdə dəstəyə ehtiyyacı olan şirkətlər LMP proqramına qoşula bilərlər:**

- Hesabatlılıq və korporativ strukturun təkmilləşdirilməsi
- Qiymətli kağız buraxılışı ilə bağlı konsaltinq və təcrübə mübadiləsi
- Kapital bazarları və bu bazarın imkanları haqqında məlumatlılığın artırılması
- Kapital bazarlarında güvənilir və təcrübəli tərəfdaşla əməkdaşlıq
- Daxili komandanın kapital bazarları haqqında təlimi
- İnvestor bazasına və investisiya şirkətlərinə çıxış əldə edilməsi
- Düzgün maliyyələşmə mənbəyinin təyin edilməsi

# İşləmə Mexanizmi

LMP-nin işləmə mexanizmi 3 (üç) mərhələdən ibarətdir və onların hər birinin özünəməxsus hədəf və tələbləri var. Şirkətlər hazırlıq səviyyəsi və alternativ maliyyələşmə növündən (səhm və ya istiqraz) asılı olaraq bu mərhələlər çərçivəsində əhatə olunan xidmətlərdən tam və ya qismən yararlana bilərlər. Hər mərhələdə göstərilən xidmətlər 3 (üç) qrup tərəfdaşın iştirakı ilə təklif olunur.

## Birinci qrup

Burada Bakı Fond Birjası çıxış edir və bütün mərhələlərdə şirkətə ödənişsiz dəstək göstərir.

## İkinci qrup

Burada məsləhətçi peşəkar şirkətlər çıxış edir və bura investisiya, hüquq, PR, audit və biznes konsaltinq xidmətləri daxildir. Şirkətin istəyindən asılı olaraq proqram çərçivəsində bu xidmətlərdən güzəştli əsaslarla istifadə edilə bilər.

## Üçüncü qrup

Burada isə investorlar çıxış edir. Bu xidmətə şirkətin maliyyələşmə növü və həcmindən asılı olaraq ehtiyyac duyulduqda şirkətin investorlarla görüşü, “roadmap” və “roadshow”-un təqdimatı daxildir.

Mərhələ 1

## Şirkətin hazırlıq dərəcəsinin müəyyənləşdirilməsi.

| Müddət | Hədəf | İştirakçılar |
|---|---|---|
| 1-10 gün | Şirkətlə tanışlıq<br>İlkin Qiymətləndirmə<br>LMP müqaviləsinin imzalanması | Birja |

Şirkət bu mərhələdə Listinq Məsləhət Proqramına qoşulma niyyətini bildirdikdən sonra Bakı Fond Birjası tərəfindən şirkətin genişlənmə strategiyası, biznes planı, idarəetmə strukturu, maliyyə modeli və hesabatlılığı araşdırılaraq BFB tərəfindən ödənişsiz şəkildə ilkin qiymətləndirilməsi aparılır. Qiymətləndirmə əsasında şirkət üçün hazırlıq dərəcəsini əks etdirən hesabat və uyğun maliyyələşmə modeli hazırlanır. Yekun olaraq şirkət ilə BFB arasında ikitərəfli müqavilə imzalanır və Listinq Məsləhət Proqramına üzv olaraq qəbul edilir.



Mərhələ 2

## Şirkətin hazırlıq mərhələsi

### Müddət

Hazırlıq səviyyəsi və maliyyələşmə növündən asılı olaraq:
Səhm buraxılışı 6-12 ay
İstiqraz buraxılışı 2-6 ay

### Hədəf

İnvestisiya şirkətləri ilə Görüş
Qiymətləndirmə
Hazırlıq

### İştirakçılar

Birja
İnvestisiya şirkətləri
Məsləhətçi peşəkar şirkətlər

LMP-ə üzv olan investisiya şirkətləri ilə şirkət arsında görüş keçirilir. Görüşdə şirkət fəaliyyəti və maliyyə ehtiyyacları haqqında investisiya şirkətlərinə məlumat təqdim edir və öz növbəsində, onlardan maliyyələşmə modeli barədə tövsiyələr alır.

Növbəti addım olaraq, müəyyən edilmiş istiqamətlərdə LMP-ə tərəfdaş olan məsləhətçi peşəkar şirkətlər cəlb olunur. Tərəfdaş şirkətlərlə birlikdə hazırlanan qiymətləndirmə hesabatı əsasında qiymətli kağızların buraxılışı üzrə hazırlıq tədbirləri həyata keçirilir. Bu tədbirlərin tamamlanması ilə hazırlıq müddəti bitir və bununla da şirkət növbəti mərhələyə hazır olur.



Mərhələ 3

## Qiymətli kağızın buraxılışı

### Müddət

1-2 ay

### Hədəf

Emissiya prospektinin hazırlanması
PR
Ticarətə buraxılış

### İştirakçılar

Birja
İnvestisiya şirkəti

Bu mərhələdə qiymətli kağızların buraxılışı üzrə emissiya prospekti hazırlanır və listinq prosesi başlanılır. Eyni zamanda şirkətin PR-ı aparılır və qiymətli kağızlara olan ilkin maraq formalaşdırılır. Mərhələnin sonunda qiymətli kağızlar BFB-də listinqə alınaraq ilkin bazarda ticarətə buraxılır və bununla da şirkət LMP-ni uğurla tamamlamış olur.





# LMP Sizin üçün nə qazandırır?

**01** Kapital bazarlarının tələblərinə cavab verəcək standartlara çatmaq

**02** Effektiv maliyyələşmə modeli ilə bazara çıxmaq

**03** Səhm və istiqraz buraxılışı prosesində güvənilir tərəfdaş əldə etmək

**04** Müsbət investor əlaqələri yaratmaq

**05** Brendinq

**06** LMP daxilində daimi böyüyən emitent və ekspert şəbəkəsinə daxil olmaq

**07** Güvənilir, dayanıqlı və nüfuzlu şirkət olmaq

## Tərəfdaşlar

FINSBURY

RSM

INVEST AZ

GrantThornton

DENTONS

arb24

ADA University

azpromo

YTP

Bakı, Xətai rayonu, Babək pr, Ə.Quliyev 11/31
Babək plaza, Blok B, 15-ci və 16-cımərtəbələr, AZ 1025

(+994 12) 498-98-20 ;  (+994 12) 488-05-80

info@bse.az